# Ön söz

44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının uzun müddət davam edən işğalına son qoyulmuşdur. Hal-hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş bütün ərazilərin dirçəlişi prosesi həyata keçirilir.

Azərbaycan ərazilərinin 20 faizinin 30 ilə yaxın müddətdə işğal altında qalması həmin ərazilərdəki tarixi və mədəni irsimiz üçün də fəlakətli fəsadlara səbəb olmuşdur. 1994-cü ildə atəşkəsin elan edilməsindən sonrakı 26 illik dövrün təhlili göstərir ki, Ermənistan tərəfindən Azərbaycan abidələrinin məhv edilməsi hərbi əməliyyatlardan sonrakı dövrdə daha geniş miqyasda aparılmışdır.

Ermənistan Azərbaycana qarşı qanunsuz və əsassız ərazi iddialarını reallaşdırmaq məqsədilə 1991-ci ilin sonundan tam miqyaslı müharibəyə başlamış, nəticədə Azərbaycanın təbii sərvətlər və mədəni irsi ilə zəngin olan ərazisinin əhəmiyyətli bir hissəsi işğal edilmişdir. Müharibə nəticəsində on minlərlə insan həyatını itirmiş, şəhərlər, qəsəbələr və kəndlər dağıdılmış, erməni vandalizminə məruz qalmışdır. Bütün işğal olunmuş ərazilərdə 700 mindən çox azərbaycanlı etnik təmizlənməyə məruz qalmış, regionun infrastrukturuna ciddi ziyan vurulmuşdur.

Ermənistan tərəfindən 700-dən çox tarixi abidə, 22 muzey, o cümlədən 100 min muzey eksponatı, 927 kitabxana, 58 arxeoloji yaşayış məskəni, 26 qala və qala divarı, habelə digər mədəni irs abidələri mənimsənilmiş, məhv və talan edilmişdir.

İşğal nəticəsində bu mirasın məqsədyönlü şəkildə məhv edilməsi siyasəti həm Azərbaycan mədəniyyətinə, həm də dünya sivilizasiyasına bərpası olmayan zərbə vurmuşdur. Ermənistan işğal olunmuş ərazilərdəki yaşayış məntəqələrinin mədəni görkəmini məqsədyönlü şəkildə dəyişdirməklə, abidələri məhv etməklə, memarlıq xüsusiyyətlərini dəyişməklə və arxeoloji qazıntılar aparmaqla bunların Azərbaycan mənşəli olduğunu göstərən əlamətlərini aradan qaldırmaq məqsədi güdmüşdür.

Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısını almaq məqsədilə 27 sentyabr 2020-ci ildə bütün cəbhə boyu əks-hücuma keçən Azərbaycan Ordusu 1990-cı illərin əvvəllərində baş verən Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal edilmiş əraziləri işğaldan azad etməyə başlamışdır. 44 gün davam edən və "Vətən müharibəsi" olaraq adlandırılan müharibə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun gücünü göstərərək Azərbaycanın qələbəsi ilə başa çatmışdır. Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri Şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra, 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan üçtərəfli Bəyanat nəticəsində 1 dekabr tarixi etibarilə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Qarabağ (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) iqtisadi rayonlarının yeni bölgüsü təsdiqlənmişdir. Hal-hazırda Qarabağ və Şərqi Zəngəzurun sürətli dirçəlişi prosesi gedir.

"Zəfərdən bu günə" informasiya bülleteni işğaldan azad edilmiş ərazilərimizdə gedən dirçəliş prosesi ilə bağlı rəsmi xronikanı özündə əks etdirir.

Azərbaycan, rus, ingilis və ispan dili olmaqla 4 dildə nəşr edilən bülletenin hər sayı 6 aylıq dövrü əhatə edir və ildə 2 dəfə - yanvar və iyul aylarında işıq üzü görür.



"Təxminən 40 il bundan əvvəl bu yerdə atam durmuşdu. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Hesab edirəm ki, burada böyük rəmzi məna var. Tarix təkrarlanır! Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq!"

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti






**16**
**AVQUST**
**2021**

## Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində tunelin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfərləri zamanı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etmişdirlər. Mərasim zamanı dövlətimizin başçısı tunelin təməlini qoymuşdur.

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11.6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilmişdir.





16
AVQUST
2021

## Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış olmuşdur.

Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu 1,3 kilometr məsafədə diametri 1,8 metr olan metal borularla əvəz edilir. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında isə işlər tamamlanmışdır. Ermənilər tərəfindən dağıdılaraq yandırılan “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır.





16
AVQUST
2021

## “Kəlbəcər” yarımstansiyasının açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfərləri zamanı 110/35/10 kV-luq “Kəlbəcər” yarımstansiyasının açılışında iştirak etmişdirlər. Açılış mərasimi zamanı dövlətimizin başçısı yarımstansiyanı işə salmışdır.

Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılmışdır. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılmışdır. “Kəlbəcər” yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulmuş və bunun üçün yeni idarəetmə binası tikilmişdir. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilmişdir.

Ermənilər tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xətti çəkilmişdir. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılmışdır.





**16 AVQUST 2021**

## Kəlbəcər-Laçın avtomobil yolu üzərində tunelin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoymuşdur.

Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaqdır. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində alt keçidlər və körpü inşa olunacaqdır. Yol üzərində 3 tunelin tikintisi aparılacaqdır. Tunellərin ümumi uzunluğu 9450 metr olacaqdır.





16
AVQUST
2021

## Laçın Beynəlxalq Hava Limanının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfərləri zamanı Laçın Beynəlxalq Hava Limanının təməlini qoymuşdurlar.

Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaqdır. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulmuşdur.





16
AVQUST
2021

## "İstisu" sanatoriyasında aparılacaq bərpa-quruculuq işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfərləri zamanı Kəlbəcər rayonunda yerləşən "İstisu" sanatoriyasında aparılacaq bərpa-quruculuq işləri ilə tanış olmuşdurlar.

İstisu kəndinin məşhur mineral suyu olan İstisu bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriya salınmışdır. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınmışdır. Mənbələrə görə, İstisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxmışdır. Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. Suyun temperaturu səthdə müsbət 74, dərinlikdə isə 90 dərəcəyə çata bilir. İstisu mineral bulaqları 12 bulaqdan ibarətdir.






16
AVQUST
2021

## İstisu-Minkənd yolunda aparılan işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfərləri zamanı İstisu-Minkənd yolunun çəkilməsi işləri ilə tanış olmuşdurlar.

Uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolu Kəlbəcərin İstisu qəsəbəsini Laçının Minkənd kəndi ilə birləşdirən yoldur. Bu, Kəlbəcər və Laçın rayonları arasında ikinci bağlantı olacaqdır. Hazırda bu yol boyunca işlər gedir və torpaq işləri başa çatmışdır. Bundan sonra asfalt qatı da vurulacaqdır.







**29**
**AVQUST**
**2021**

## Əhmədbəyli-Füzuli-Şuşa “Zəfər yolu”nun tamamlama işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olmuşdur. İki-üç hərəkət zolaqlı yolun uzunluğu 101 kilometrdir. Artıq yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınmışdır. Digər hissələrdə isə işlər davam etdirilir. Yolda körpülər və yeraltı keçidlər inşa edilmişdir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdikləri cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu dövlətimizin başçısı tərəfindən “Zəfər yolu” adlandırılmışdır.





29
AVQUST
2021

## Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olmuşdurlar. Qarabağın hava qapısı hesab edilən Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunur. Baqaj konveyerlərinin, qeydiyyat və digər sistemlərin işə salınması nəzərə alınmaqla, sentyabr ayının sonuna qədər sərnişin terminalının istismara verilməsi işləri tam başa çatdırılacaqdır.

Hava limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilmişdir. Aeroport istənilən tip hava gəmisini qəbul etməyə imkan verəcəkdir. Burada perron da inşa edilmişdir. Avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi başa çatdırılmışdır. Bunun sayəsində Füzuli hava limanına ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaqdır. Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə terminalın qarşısında 150 avtomobil üçün nəzərdə tutulmuş dayanacaq inşa edilmişdir. Füzuli Beynəlxalq Hava Limanına giriş üçün yolun tikintisi, həmçinin aeroportun ərazisində yaşıllaşdırma işləri aparılır.





29
AVQUST
2021

## “Qarabağ” otelinin açılış mərasimi

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan “Qarabağ” otelinin açılış mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da açılışda iştirak etmişdirlər.

1980-ci ildə inşa edilən otelin binası 1992-ci ilin mayında Şuşa şəhərinin işğalı nəticəsində öz fəaliyyətini dayandırmış və baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşmüşdür. Şuşa şəhəri işğaldan azad edildikdən sonra 2021-ci ildə Prezident İlham Əliyevin tapşırığına əsasən, oteldə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilməyə başlanılmışdır. Müasir səviyyəyə çatdırılan oteldə Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün hər cür şərait yaradılmışdır. Burada müxtəlif kateqoriyalı otaqlar vardır. Binada restoran və bar qonaqların ixtiyarına veriləcəkdir. Oteldə işgüzar görüşlərin və tədbirlərin keçirilməsi üçün konfrans otağı yaradılmışdır. Otel ərazisində avtomobil dayanacağı da inşa edilmişdir. Otelə yaxın olan parkın ərazisi abadlaşdırılmış, fəvvarələr qurulmuş və park işğaldan əvvəlki görkəminə qaytarılmışdır.



**29 AVQUST 2021**

## Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada aparılan bərpa işləri ilə tanışlıq

Şuşada Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada bərpa işləri aparılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva avqustun 29-da Şuşaya səfərləri zamanı inzibati binada aparılan bərpa işləri ilə tanış olmuşdurlar.



**29 AVQUST 2021**

## Şuşada Molla Pənah Vaqifin büstünün açılış mərasimi

Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da açılışda iştirak etmişdirlər.

Molla Pənah Vaqifin 1957-ci ildə tuncdan hazırlanan büstü 1958-ci ildə Cıdır düzünə yaxın ərazidə qəbirüstü abidə kimi yerləşdirilmiş, daha sonra 1976-cı ildə şairin Şuşadakı evinin yaxınlığına köçürülmüşdür. 1982-ci ildə Vaqifin məqbərəsinin açılışından əvvəl büst və onun ətrafı təmir edilmiş, abidənin postamenti dəyişdirilmişdir. Büst 1992-ci ildə Şuşa şəhərinin işğalı zamanı erməni vandalizminə məruz qalaraq dağıdıl-mışdır. Prezident İlham Əliyevin göstərişinə əsasən, abidə bu il onun müəllifi, Əməkdar incəsənət xadimi Həyat Abdullayevanın ilkin eskiz layihəsi əsasında yenidən qurulmuşdur. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan büst öz əvvəlki yerinə qaytarılaraq Molla Pənah Vaqifin Şuşadakı evinin yaxınlığında quraşdırılmışdır.






29
AVQUST
2021

## Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılış mərasimi

Şuşada dahi Azərbaycan şairi və ictimai-xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış mərasimi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da açılış mərasimində iştirak etmiş və görülən işlərlə tanış olmuşdurlar.

1982-ci il yanvarın 14-də xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olmuşdur. Məhz bu səfər çərçivəsində ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş vermiş və həmin ilin 29 iyul – 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirilmişdir.

Muzey-məqbərə kompleksi Cıdır düzünə yaxın bir ərazidə dahi şairin məzarı üzərində inşa edilmişdir. Dördkünc quruluşa malik və mərmərlə bəzədilən türbənin inşası məsələsi həll edilərkən ətrafdakı dağ mənzərəsi və şəhərsalma xüsusiyyəti nəzərə alınaraq, Azərbaycanın qülləvari türbələrinin kompozisiya quruluşundan istifadə edilmişdir. Məqbərənin inşasında xalq memarlığının yerli ənənələrinə, monumental-dekorativ və tətbiqi plastika vasitələrinə yer verilmişdir. Türbənin daxilində Molla Pənah Vaqifin heykəltəraş Albert Mustafayev tərəfindən hazırlanan büstü qoyulmuşdur. 1992-ci ildə Şuşa şəhərinin Ermənistan tərəfindən işğalı nəticəsində kompleksin binası və burada sərgilənən bütün eksponatlar məhv edilmişdir. Şuşa şəhəri işğaldan azad edildikdən sonra, 39 il əvvəl məqbərənin açıldığı gündə – yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı məqbərəni ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə start verilmişdir.

Məqbərədə təmir-bərpa və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılmışdır. 2021-ci ilin mart ayından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırılmış və bu çərçivədə işçi layihələr hazırlanmışdır. İşçi layihələr əsasında xarici mütəxəssislər tərəfindən təyin edilən xüsusi kimyəvi materiallarla elementlərin konstruktiv bərpa işləri yerinə yetirilmiş, korroziyaya qarşı əlavə tədbirlər görülmüşdür. Abidənin dam örtüyü yenidən qurulmuşdur. Topoqrafiya işləri nəticəsində əldə edilən məlumatlar üzrə, o cümlədən ərazidə axtarış işləri keçirtməklə qırılmış, dağılmış üzlük hissələrin əldə edilməsi ilə birlikdə abidənin ilkin ölçülərinin bərpası məqsədilə memarlıq işçi layihələri hazırlanmışdır. Bu layihələr əsasında fasadın və daxili hissələrin divar səthləri mərmərlə üzlənmiş və abidənin tarixi görkəmi bərpa edilmişdir.

Ərazidən tapılan tökmə alüminium şəbəkə nümunəsi əsasında hazırlanmış işçi layihələr üzrə bütün şəbəkə və dekorlar, o cümlədən giriş qapısı tökmə üsulu ilə alüminium materialdan tarixi ölçüləri qorunmaqla hazırlanmış, Şuşa şəhərinə gətirilərək layihə üzrə quraşdırılmışdır. Salonun mərkəzində qəbir daşı üzərində qara mərmərdən sənduqə qoyulmuş, ilkin formanın bərpası nəzərə alınmaqla büst ağ mərmərdən işlənib hazırlanaraq quraşdırılmışdır. Abidənin hər detalında tarixi görkəm qorunub saxlanılmışdır. Abidə kompleksinin bütün infrastrukturu yenidən qurulmuş, yağış suları üçün drenaj xətləri və elektrik xətləri çəkilib quraşdırılmışdır. Landşaftda istinad divarları və meydança tarixi görkəmi çərçivəsində qranitlə üzlənmişdir. Ətrafda o dövrün şəkillərində əks olunduğu kimi, müxtəlif növ qızılgül kolları əkilmişdir.







**29**
**AVQUST**
**2021**

## Bülbülün ev-muzeyinin açılış mərasimi

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra avqustun 29-da açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak etmişdirlər.

Görkəmli musiqiçinin anadan olduğu ev 1982-ci ildən ev-muzeyi kimi fəaliyyət göstərmişdir. Ümummilli lider Heydər Əliyevin göstərişi əsasında Şuşa Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi 1982-ci il 31 avqust tarixli qərarı ilə Bülbülün doğulduğu və yaşadığı evin ev-muzeyinə çevrilməsi barədə qərar qəbul etmişdir. Bina 1982-1983-cü illərdə təmir olunmuş, muzey ekspozisiyası qurulmuş və önündə inzibati bina inşa edilmişdir. Muzeydə Bülbülün uşaqlıq illərinə aid şəkillər, şəxsi əşyalarından bəziləri, o cümlədən onun qavalı da nümayiş etdirilirdi. Muzeydə Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyətini əks etdirən 9 minə yaxın sənəd toplanmışdır. Burada, həmçinin Azərbaycanda yeni vokal məktəbinin yaradılmasında, xalq musiqisinin öyrənilməsi və təbliğində Bülbülün çoxillik səmərəli yaradıcı işini təsdiq edən materiallar nümayiş etdirilirdi.

Ev-muzeyi 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandırmışdır. 2021-ci il yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı ev-muzeyini ziyarət edən Prezident İlham Əliyevin tapşırığına əsasən muzeydə aparılan təmir-bərpa və yenidənqurma işləri artıq başa çatmışdır. Bərpa işləri zamanı ev-muzeyinin divarlarında suvaq altından daş üzərində yonulmuş ərəb əlifbası ilə iki yazı və günəş simvolunu əks etdirən təsvir aşkar olunmuşdur. Yazıların birində Qurandan ayə, digərində isə evin tikilmə tarixi qeyd edilmişdir. Divarın üzərində yeni aşkar olunmuş yazıda göstərilir ki, bina 1788-ci ildə inşa edilmişdir. Bina tipoloji mənsubiyyətinə görə Qarabağ və Azərbaycanın tarixi yaşayış binalarının xüsusiyyətini özündə əks etdirir. Otaqların daxili quruluşu Azərbaycanın ənənəvi evlərinə xasdır.

Şuşa şəhərinin işğalı zamanı ev yararsız hala salınmış, yükdaşıyıcı divarlarında çatlar əmələ gəlmiş və divarlar çökmüşdür. Bərpa zamanı bütün yükdaşıyıcı divarların bünövrəsi möhkəmləndirilmiş, çat olan divar hissələrində yenidənqurma işləri aparılmışdır. Binanın daxili otaqlarında çürümüş taxta döşəmələr yeniləri ilə əvəz edilmişdir. Dam örtüyü, qapı və pəncərələri çürüdüyündən və istismara yararsız halda olduğundan, binanın tarixi görkəmini qorumaq şərti ilə yenisi ilə əvəz edilmişdir. Bülbülün ev-muzeyinə məxsus həyətyanı sahə ilkin görkəmi saxlanılmaqla bərpa olunmuşdur. Binada Bülbülün muzey ekspozisiyası qurulmuşdur. Ev-muzeyinin həyətində Bülbülün yeni hazırlanan büstü ucaldılmışdır. Şuşa şəhəri işğalda olduğu dövrdə Bülbülün vandalizmə məruz qalmış büstü isə erməni vəhşiliyini nümayiş etdirmək məqsədilə saxlanılmışdır.





29 AVQUST 2021

## Üzeyir Hacıbəylinin heykəlinin açılış mərasimi

Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı olmuşdur. Avqustun 29-da keçirilən açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak edərək heykəlin üzərindəki örtüyü götürmüşdürlər.

1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdır. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlanmışdır. Heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılmışdır. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılmışdır. Abidə heykəltəraşlar Aslan Rüstəmov, Teymur Rüstəmov, Mahmud Rüstəmov tərəfindən hazırlanmışdır.





**29**
**AVQUST**
**2021**

## Üzeyir Hacıbəylinin ev-muzeyində aparılacaq işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanış olmuşdurlar.

Görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir Hacıbəylinin ev-muzeyi Şuşa şəhərində Ermənistanın işğalınadək fəaliyyət göstərmişdir. Erməni işğalçı qüvvələrinin vəhşiliyi nəticəsində muzeydə dahi bəstəkarın həyat və yaradıcılığı ilə bağlı 1700 eksponatdan yalnız 100-ə yaxını salamat qalmış, qalanı məhv edilmişdir.

Heydər Əliyev Fondu tərəfindən ev-muzeyində aparılacaq işlər üzrə layihə hazırlanmışdır. Ev-muzeyində həyata keçiriləcək işlərdən sonra 1992-ci ildə muzeyin Bakıya aparılmış eksponatlarının burada yerləşdirilməsi nəzərdə tutulur. Bunlar Üzeyir Hacıbəylinin fotoşəkilləri, məktubları, əsərlərinin partituraları və şəxsi əşyalarıdır.





**29**
**AVQUST**
**2021**

## Şuşada “Otel və Konfrans Mərkəzi”nin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Şuşada “Otel və Konfrans Mərkəzi”nin təməlinin qoyulmasında iştirak etmişdirlər. Prezident İlham Əliyev “Otel və Konfrans Mərkəzi”nin təməlini qoymuşdur. Karvansaray konsepti əsas götürülərək, Şuşa şəhərinin mərkəzində, Zəfər yolunun üzərində yerləşəcək 5 ulduzlu “Otel və Konfrans Mərkəzi” müasir və milli memarlıq üslublarının sintezi ilə dizayn edilmişdir.

Mərkəz 2,8 hektar ərazini əhatə edəcəkdir. Memarlıq adət-ənənələrini özündə əks etdirən xarici görünüşündə ornamental kompozisiyalar və milli memarlıq elementləri tətbiq ediləcəkdir. Fasadın üzlənməsində Şuşanın tarixi binalarının tikintisində işlənilən yerli daşdan istifadə olunacaqdır. Mərkəzin eyvanları, şimal və cənub fasadları ənənəvi memarlıq quruluşunda, Şuşanın tarixi binalarının – XIX əsrə aid Zöhrabbəyovun evi, Üzeyir Hacıbəyovun ev-muzeyinin tikintisində istifadə olunmuş taxta tərkibli materiallardan hazırlanmışdır. Beş mərtəbədən və 150 nömrədən ibarət “Otel və Konfrans Mərkəzi”ndə otaqlar, restoranlar, konfrans korpusları, daxili həyətlər olacaqdır.





**29**
**AVQUST**
**2021**

## Şuşa şəhərinin Baş planı və birinci məhəllənin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya avqustun 29-da Şuşa şəhərinin Baş planı təqdim edilmiş və Prezident İlham Əliyev birinci məhəllənin təməlini qoymuşdur.

Şuşa şəhərinin Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülmüşdür. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarix ilə müasirliyin vəhdəti üzərində qurulacaqdır. Təqdim olunan Baş planda Şuşada müxtəlif yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapmışdır.

Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulmuşdur. Şəhərin Baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunmuşdur. Şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası nəzərdə tutulmuşdur. Şuşada ümumi sahəsinin 46.765 m² olması planlaşdırılan yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaqdır. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulmuşdur. Yaşayış massivində 25 binanın olacağı planlaşdırılmışdır. Avqustun 29-da təməli qoyulan 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar Şuşaya xas memarlıq üslubu ilə tikiləcəkdir.







**30**
**AVQUST**
**2021**

## Vaqif Poeziya Günlərinin açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak etmişdirlər.

Şuşa işğaldan azad edildikdən sonra Vaqif Poeziya Günləri yenidən bərpa edilmiş və ilk dəfə avqustun 30-da Heydər Əliyev Fondu tərəfindən Molla Pənah Vaqifin məqbərəsi önündə təşkil edilmişdir.

Açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev demişdir: “Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq.

Noyabrın 8-də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən demişdim ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Biz azad Şuşada yığışmışıq. Demişdim ki, biz Şuşaya qayıtmışıq. Bu da həqiqətdir. Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bu da baş verir, biz Şuşanı dirçəldirik.

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Yaşasın Azərbaycan!”







30 AVQUST 2021

## “Qarabağ Azərbaycan mədəniyyətinin incisidir” sərgisi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən “Qarabağ Azərbaycan mədəniyyətinin incisidir” sərgisi ilə tanış olmuşdurlar.

Altmışdan çox əsərin nümayiş olunduğu sərgidə nümayiş olunan rəsm və heykəltəraşlıq nümunələri ziyarətçiləri sevincli və kədərli, real və fantastik, açıq və gizli, rəngarəng və monoxrom dünyaya səyahətə aparır. Burada nümayiş etdirilən əsərlərdə əsas ilham mənbəyi Qarabağdır. Sərgidə Qarabağın mənzərələri, ədibləri, xalçası, atı, muğamı, Vətən müharibəsində qələbə mövzularına geniş yer verilmişdir.







30
AVQUST
2021

## “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” sərgisi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” sərgisi ilə tanış olmuşdurlar.

Azərbaycan Milli Xalça Muzeyinin Şuşadakı Xalçaçılıq Qalereyasında təqdim etdiyi sərgidə xovlu və xovsuz xalçalar, xalça məmulatları, milli tikmə və geyim dəstləri, bədii metal nümunələri nümayiş olunmuşdur. Sərgidə, həmçinin Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasına daxil olan xalça nümunələri də yer almışdır. Yenidən öz doğma diyarında sərgilənən bu eksponatların əksəriyyəti Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialından Bakıya gətirilmişdir. Sərgidə əsrlər boyu çox yüksək dəyərləndirilən, xarici muzey və şəxsi kolleksiyaların nadir inciləri sırasına daxil olan Qarabağ xalçalarının müxtəlif bölgələrə aid nümunələrini görmək mümkün olmuşdur.



**30**
**AVQUST**
**2021**

## "Yaddaş. Fotoqrafik tarix" sərgisi

Heydər Əliyev Fondu tərəfindən avqustun 30-da Şuşada "Yaddaş. Fotoqrafik tarix" sərgisi təşkil edilmişdir. Fotosərgi Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, gözəl təbiətini, ənənələrini təcəssüm etdirmişdir. Ermənistan vaxtilə işğal altında saxladığı ərazilərdə mədəni irsimizə, tarixi-memarlıq nümunələrimizə qarşı vandalizm həyata keçirmiş, düşmən tərəfindən tarixi-mədəni obyektlər, dini ocaqlar məhv edilmiş, bir sıra rayon və şəhərlər yerlə-yeksan olmuşdur.

Ziyarətçilərə, həmçinin işğaldan azad olunmuş rayon və şəhərlərdə ermənilərin törətdiyi vəhşiliklərə, dağıntılara dair fotolar təqdim edilmişdir. Sərgidə Vətən müharibəsi zamanı Ermənistan tərəfindən mülki əhaliyə qarşı törədilən cinayətləri əks etdirən fotolar nümayiş olunmuşdur.







**27**
**SENTYABR**
**2021**

## Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq keçirilən yürüş

Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində yürüş təşkil edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak etmişdirlər.

Dövlətimizin başçısı Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlini qoymuş, sonra isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla yad etmişdirlər.

Yerli vaxtla saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərindən fasiləsiz fit səsi verilmiş, toplardan yaylım atəşi açılmışdır.







**03**
**OKTYABR**
**2021**

## Tərtərin Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını etmişdir.

Ümumi uzunluğu 28,5 kilometr, eni 9 metr olan yol 2 hərəkət zolağından ibarətdir. Yolda aparılan tikinti işləri inşaat norma və qaydalarının tələblərinə uyğun yüksək keyfiyyətlə həyata keçirilmişdir. Yolboyu layihə üzrə avtobus dayanacaqları inşa edilmiş, hərəkətin normal təşkili üçün digər zəruri infrastruktur yaradılmışdır. Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yolları ötən əsrin 70-ci illərində Suqovuşan su anbarının tikintisi ilə əlaqədar ulu öndər Heydər Əliyevin tapşırığına əsasən inşa edilmişdir.






## 03 OKTYABR 2021

## Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoymuşdur. Tərtərin Talış kəndindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndini keçməklə Naftalan şəhərinə doğru gedən yeni yolun ümumi uzunluğu 22 kilometr təşkil edəcəkdir.






**03**
**OKTYABR**
**2021**

## “Suqovuşan-1” və “Suqovuşan-2” Kiçik Su Elektrik stansiyalarının açılış mərasimi

Tərtərdə “Suqovuşan-1” və “Suqovuşan-2” Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olmuşdur. Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak etmiş və stansiyaları işə salmışdır.

“Suqovuşan-1” Kiçik Su Elektrik Stansiyasında ildə 13,8 milyon kVt/saat elektrik enerjisi istehsal olunacaqdır. Azərbaycan Ordusunun 2020-ci ilin oktyabrın 3-də işğaldan azad etdiyi Tərtər rayonunun Suqovuşan qəsəbəsindəki “Suqovuşan-1” və “Suqovuşan-2” Kiçik Su Elektrik Stansiyalarının ümumi gücü 7,8 meqavatdır. Hər iki stansiya əsaslı şəkildə yenidən qurulmuş, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənmişdir.



03
OKTYABR
2021

## Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində Tərtər şəhərində dağılmış evin əvəzinə tikilən yeni evdə yaradılan şəraitlə tanışlıq

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin "Smerç" raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxmış və onun əvəzinə inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olmuşdur.

Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində Tərtərdə ümumilikdə 16 mülki şəxs qətlə yetirilmiş, 63 nəfər yaralanmışdır. Müharibə zamanı, həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılmışdır. Nəticədə Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəymişdir. 62 ev demək olar ki, tam dağıdılmışdır. Onların 36-sı tamamilə hazır edilərək təhvil verilmişdir. Digər 26-da isə son tamamlama işlərinin yaxın günlərdə başa çatacağı gözlənilir. Evlərlə yanaşı döyüşlər zamanı Tərtərdə 17 məktəb dağıdılmışdır. Ölkə rəhbərinin sərəncamı ilə həmin məktəblər tam təmir olunmuşdur. Modul tipli bir məktəb hazırdır. 5 saylı şəhər məktəbinin isə artıq layihə-smeta sənədləri hazırlanmış, yaxın günlərdə inşasına başlanılacaqdır.

Döyüşlər zamanı 184 sahibkarlıq obyekti dağılmışdır. Onların artıq hamısı təmir olunmuşdur. 301 qeyri-yaşayış sahəsi dağıdılmışdır. Prezident İlham Əliyevin sərəncamına əsasən əmlakına ziyan dəyən insanlara 6 milyon 202 min manat, eyni zamanda 545 baş heyvan üçün kompensasiya ödənilmişdir. Ümumilikdə 6 milyon 794 min 200 manat verilmişdir. Səngər qazılan, mərmi düşməsi nəticəsində dağılan əkin sahələrinə dəyən ziyanın qarşılığı ödənilmişdir.






**04**
**OKTYABR**
**2021**

## “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir. Qarabağ bölgəsində yük avtomobilləri və kənd təsərrüfatı texnikaları üçün “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin yaradılması xüsusi əhəmiyyət daşıyır. Layihə bu ilin iyul ayında Rusiya şirkətlərinin nümayəndələrinin Azərbaycana işgüzar missiyası çərçivəsində “Gəncə avtomobil zavodu” İstehsalat Birliyi ilə “KamAZ” ASC arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq “KamAZ” avtomobil zavodu ilə birlikdə həyata keçiriləcəkdir.

“Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında yaradılacaq regional servis mərkəzinin ümumi ərazisi 1,5 hektar olacaqdır. Ərazidə satış zalı, maliyyə xidmətləri şöbəsi, xidmət bürosu, menecer şöbələri, təmir zonası ustalarının ofisləri və ehtiyat hissələri anbarının yerləşəcəyi inzibati bina, yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət üçün qulluq blokları, təmir sexləri, avtoyuma və dayanacaq fəaliyyət göstərəcəkdir. Mərkəzdə “KamAZ” ilə yanaşı, digər yük avtomobilləri, eləcə də kənd təsərrüfatı texnikalarına, o cümlədən traktor və kombaynlara texniki servis xidməti göstəriləcəkdir. Burada 36 yeni iş yerinin yaradılması nəzərdə tutulur.





04
OKTYABR
2021

## “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının təməlini qoymuşdur.

Cəbrayıl rayonunda yaradılacaq sənaye parkı 200 hektar ərazini əhatə edəcəkdir. Ərazi kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonalara bölünəcəkdir. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılmışdır. Sənaye Parkında tikinti üçün üzlük və izolyasiya materialları, müxtəlif qatqı maddələri, metal konstruksiya istehsalı müəssisələrinin təşkili nəzərdə tutulmuşdur. Parkın ərazisində kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, süd və ət məhsulları istehsalı və emalı, şərab, yem, gübrə istehsalı, ipəkçilik müəssisələrinin, soyuducu kameraların qurulması, kiçik istehsal və xidmət sahələrinin yaradılması planlaşdırılmışdır.

Sənaye Parkının yaxınlığında yaşayış məntəqəsi olmadığı üçün sosial zonada 150 nəfərlik konteyner şəhərciyi qurulacaqdır. Şəhərcikdə Parkın idarə olunması və rezidentlər üçün ofis binaları, inzibati heyət, rezidentlər, tikintini həyata keçirən mühəndis və fəhlələr üçün yaşayış binaları və xidmət obyektləri, tibb məntəqəsi, idman meydançası və digər infrastruktur yaradılacaqdır.







**04**
**OKTYABR**
**2021**

## “Cəbrayıl” yarımstansiyasının açılış mərasimi

Cəbrayıl rayonunda 110/35/10 kilovoltluq “Cəbrayıl” yarımstansiyasının açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də yarımstansiyanın açılışında iştirak etmişdir.

Cəbrayıl rayonuna Füzulidəki “Şükürbəyli” yarımstansiyasından uzunluğu 31 kilometr olan 110 kilovoltluq ikidövrəli 1-ci və 2-ci “Cəbrayıl” hava xətləri çəkilmişdir. Bir vaxtlar qoşunların təmas xətti olduğundan tamamilə minalanmış yerlərdən keçən xəttin uzandığı ərazi partlamamış sursatlardan təmizlənmişdir. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülmüşdür. Yeni yarımstansiyada 110 kilovoltluq açıq paylayıcı qurğu tikilmişdir. 110/35/10 kilovoltluq “Qubadlı” və “Zəngilan” yarımstansiyalarının qidalandırılması məqsədilə Cəbrayıldan çəkilən ikidövrəli ötürmə xətlərinin qoşulması üçün texniki cəhətdən yarımstansiyada lazımi şərait yaradılmışdır. “Cəbrayıl” yarımstansiyası yeni avadanlıqlarla komplektləşdirilmiş, burada müasir rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri quraşdırılmışdır. Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulmuş, eyni zamanda enerji sistemi mərkəzi SCADA sisteminə inteqrasiya olunaraq rəqəmsallaşdırılmışdır.




**04**
**OKTYABR**
**2021**

## Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını etmişdir. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin açılış mərasimində iştirak etməsi münasibətilə hərbi hissədə mərmər yaddaş daşı və lövhəsi quraşdırılmışdır. Hərbi hissənin silah və döyüş texnikası arsenalına "Harop" və "Quzğun" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbara-atanlar, tank əleyhinə idarə olunan raketlər, 120 millimetrlik və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri, atıcı, qrup və snayper silahları, müşahidə və gecəgörmə cihazları, termal qurğular və nişangahlar, xüsusi təyinatlı avadanlıqlar, həmçinin zirehli transportyorlar, yüksək keçidli avtomobillər, zirehli döyüş maşınları daxil edilmişdir.

Ərazisi 64 hektar olan hərbi hissə kompleksinə qərargah binası və əsgər yataqxanası, xidməti otaqlar, yeməkxana binası, hamam-camaşırxana, yaşayış şəhərciyi, avtomobil texnikasının saxlanılması üçün bokslar, silah, yanacaq, ərzaq və əşya-geyim anbarları daxildir. Kompleksin təlim şəhərciyində hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi üzrə məşqlərin təşkili, atış poliqonunda müxtəlif cür atıcı və iriçaplı silahlardan atışların keçirilməsi və nəticələrinin qiymətləndirilməsi, şəxsi heyətin mövcud silah və döyüş texnikasından istifadə bacarıqlarının təkmilləşdirilməsinə imkan verən zəruri şərait yaradılmışdır. İdman şəhərciyində hərbi qulluqçuların idmanla məşğul olmaqları üçün futbol və voleybol meydançaları, ən müasir standartlara uyğun avadanlıqlar və alətlərlə təchiz olunan idman zalı vardır. Ərazidə əsaslı abadlıq işləri aparılmışdır.






**04**
**OKTYABR**
**2021**

## Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi

Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də keçirilən mərasimdə iştirak etmiş və xəstəxananın təməlini qoymuşdur. Baş Plan layihəsinə əsasən şəhərin cənub hissəsində yerləşəcək yeni xəstəxananın ümumi ərazisi 2,6 hektardır. 150 çarpayılıq xəstəxana binasında yoluxucu xəstəliklər korpusu və bir sıra texniki təyinatlı binalar olacaqdır.







**04**
**OKTYABR**
**2021**

## Akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlqoyma mərasimində iştirak etmiş və məktəbin təməlini qoymuşdur. 960 şagirdin təhsil alacağı yeni məktəb binasında hər cür inventarla təchiz olunmuş sinif otaqları, fənn kabinetləri fəaliyyət göstərəcəkdir. Məktəbin həyətində geniş idman meydançası tikiləcəkdir. 1876-cı ildə tikilib istifadəyə verilmiş 145 yaşlı bu məktəblə yanaşı, Cəbrayıl şəhərində daha 3 məktəbin tikilməsi nəzərdə tutulmuşdur.





**04**
**OKTYABR 2021**

## Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi

Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də keçirilən mərasimdə iştirak etmiş və yaşayış məhəlləsinin təməlini qoymuşdur. 10,5 hektar ərazini əhatə edən yaşayış məhəlləsi mərhələli şəkildə tikilərək istifadəyə veriləcəkdir. İlk mərhələdə 5 bina tikiləcək və buraya 200-ə yaxın ailə, yəni 654 sakin köçürüləcəkdir. Məhəllədə 4, 5 və 6 mərtəbəli yaşayış, o cümlədən digər təyinatlı binalar olacaqdır. Bu məhəllədə və ümumilikdə şəhərin mərkəzində tikiləcək binaların fasad və eyvanlarına tarixilikləri qorunmaqla müasir görkəm veriləcəkdir.




**04**
**OKTYABR 2021**

## Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüş. Memorial Kompleksin və şəhərin bərpasının təməl daşının qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoymuşdur.



**09**
**OKTYABR 2021**

## Hadrut qəsəbəsində yeni məscidin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər etmişdir. Səfər zamanı dövlətimizin başçısı Hadrut qəsəbəsində yeni məscidin təməlini qoymuşdur. Hadrut qəsəbəsində yerli əhali üçün inşa ediləcək məscidin minarəsi 26 metr olacaqdır. Eyni vaxtda 250 nəfərin ibadəti üçün nəzərdə tutulan məscidin ikinci mərtəbəsində qadınların ibadət otağı yerləşəcəkdir. Məscidin fasadında xüsusi bəzək elementlərindən istifadə olunacaqdır.



09
OKTYABR
2021

## Şükürbəyli-Cəbrayıl-Hadrut, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Şükürbəyli-Cəbrayıl-Hadrut, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Cəbrayıl rayonu Şükürbəyli kəndindən keçən hissəsindən götürən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. Tikintisi aparılan yolun uzunluğu 39,7 kilometrdir. Yol 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilir. Bu yolda torpaq işləri və süni qurğuların inşası prosesi gedir. Yol boyunca 7 yeni avtomobil körpüsünün inşası davam edir. Körpülərdən biri Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolu ilə kəsişmədə layihələndirilmişdir. Bununla da sözügedən avtomobil yolundan magistral yola rahat giriş-çıxış təmin olunacaqdır. Görülən işlərə paralel olaraq, tikinti ərazisinə cəlb olunmuş xüsusi texnikaların çevik hərəkətinin təmin olunması məqsədilə yol çiyinlərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işləri aparılır.

Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir. Avtomobil yolu Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla sözügedən rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcəkdir.

Başlanğıcını Zəfər yolundan götürən Füzuli-Hadrut avtomobil yolu yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan birinci texniki dərəcəli Füzuli-Hadrut yolu 4 hərəkət zolaqlı olacaqdır. Yol boyunca torpaq yatağının və yeni avtomobil körpülərinin inşası aparılır. Uzunluğu 18 kilometr olan Tuğ-Hadrut avtomobil yolunun tikintisi davam edir. İkinci texniki dərəcəyə uyğun inşa edilən bu yol iki hərəkət zolaqlı olacaqdır.





**09**
**OKTYABR**
**2021**

## “Hadrut” qovşaq yarımstansiyasının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da yeni “Hadrut” qovşaq yarımstansiyasının təməlini qoymuşdur.

Hadrut qəsəbəsini elektrik enerjisi ilə təmin etmək üçün Füzuli rayonundakı 110/35/10 kV-luq “Şükürbəyli” yarımstansiyasından “Hadrut” yarımstansiyasına qədər uzunluğu 27 kilometr olan 35 kV-luq ikidövrəli hava xətti çəkilmişdir.

Şuşa şəhərinin qısa vaxtda elektrik enerjisi ilə təmin olunması üçün 35/10 kV-luq “Daşaltı” yarımstansiyası inşa edilmişdir. Yarımstansiyanı qidalandırmaq üçün “Hadrut” yarımstansiyasından 53,5 kilometr uzunluğunda elektrik veriliş xətti çəkilmişdir. Çətin relyef, qar və şaxtalı hava şəraitinə baxmayaraq 37 gün ərzində gecə-gündüz aparılan işlərdən sonra bu il yanvarın 7-də Şuşa şəhərində Azərbaycan işığını yandırmaq mümkün olmuşdur.

“Şükürbəyli”, “Hadrut” və “Şuşa” yarımstansiyaları arasında yaradılmış 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olan və “Hadrut” yarımstansiyasının əvəzində tikiləcək müasir tipli “Hadrut” qovşaq yarımstansiyası Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərin elektrik təchizatının etibarlılığını və dayanıqlılığını təmin edəcəkdir.





**17**
**OKTYABR**
**2021**

## Füzuli-Ağdam avtomobil yolunun təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın oktyabrın 17-də Füzuli rayonuna səfərləri zamanı dövlətimizin başçısı Füzuli-Ağdam avtomobil yolunun təməlini qoymuşdur.

Bərdə-Ağdam avtomobil yolunun davamı olan, uzunluğu 64,8 kilometr, eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olacaqdır. Layihəyə uyğun olaraq yolboyu körpülərin, avtobus dayanacaqlarının və digər yol infrastrukturunun inşası nəzərdə tutulmuşdur.



17
OKTYABR
2021

## Füzuli rayonunun Dövlətyarlı kəndində “Ağıllı kənd”in təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunun Dövlətyarlı kəndində yeni salınacaq “Ağıllı kənd” layihəsi ilə tanış olmuşdurlar. Prezident İlham Əliyev “Ağıllı kənd”in təməlini qoymuşdur. Yaşıl və alternativ enerjinin, “ağıllı idarəetmə” sisteminin tətbiq ediləcəyi “Ağıllı kənd” layihəsinə əsasən üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulmuşdur. Burada, məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq, bazar yaradılacaqdır. Kəndin ətrafında isə “Ağıllı kənd” təsərrüfatı sahəsi olacaqdır.

Burada xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə günəş paneli tarlası salınacaqdır. İnvestisiya layihəsinin gücü 50 meqavat olacaq tarlada 20 daimi iş yeri yaradılacaqdır.

Kənddə biznes layihələri də icra olunacaqdır. Burada kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır. Bu müəssisələrdə 40 daimi, 300-dək mövsümi iş yeri yaradılacaqdır. Kənddə Köndələnçay su anbarı əsasında ağıllı akvakultura sistemlərinin tətbiqi hesabına ixracyönümlü balıqçılıq təsərrüfatının qurulması nəzərdə tutulmuşdur. Burada quşçuluq təsərrüfatı yaradılacaq və ilkin mərhələdə 85 daimi iş yeri olacaqdır. Ağıllı turizm həllərinin tətbiqi vasitəsilə kənd turizm infrastrukturunun formalaşdırılması və otel infrastrukturunun yaradılması nəzərdə tutulmuşdur.






17
OKTYABR
2021

## Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olmuşdurlar. Füzuli Beynəlxalq Hava Limanında beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilən bütün tikinti və ətraf ərazinin abadlaşdırılması işləri başa çatdırılmışdır. Hava limanında istənilən tip hava gəmisini qəbul etməyə imkan verən, uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilmişdir. Burada baqaj konveyerlərinin, qeydiyyat sisteminin, VIP zalların, mağazaların, restoranların və digər məntəqələrin işə salınması nəzərə alınmaqla, saatda ən azı 200 sərnişinin buraxılışına imkan verən terminalın tikintisi başa çatdırılmışdır.



**17**
**OKTYABR**
**2021**

## Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma tədbirində iştirak etmişdirlər. Tədbir zamanı Prezident İlham Əliyev Mərkəzin təməlini qoymuşdur. İşğaldan azad edilmiş ərazilərdə yaradılan Rəqəmsal Yarımstansiya elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Cənubi Qafqazda ilk dəfə tətbiq olunan bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini, vahidliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Rəqəmsal Yarımstansiyadan qidalanan istehlakçılar hər hansı bir texniki fasilənin yaranması haqqında məlumatları onlayn qaydada əvvəlcədən ala bilirlər. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi Rəqəmsal Yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal Yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-birilə koordinasiyasını tam təmin edir. Əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir, daimi işçi heyətə ehtiyac olmur.





17
OKTYABR
2021

## Mərkəzi Şəhər Parkında aparılacaq işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzulidə yaradılacaq Mərkəzi Şəhər Parkında aparılacaq işlərlə tanış olmuş və parkda ağac əkmişdirlər.

Burada şəhər sakinləri və qonaqlar üçün 21 hektarlıq böyük meşə parkı salınacaqdır. Ərazidə 5000-dən çox Eldar şamı, həmişəyaşıl sərv, zeytun, Şərq çinarı, ağcaqayın və digər növ ağaclar əkiləcəkdir. Sakinlərin asudə vaxtının maraqlı təşkili məqsədilə istirahət guşələri, müxtəlif tədbirlər üçün amfiteatr zonası, kempinq və istirahət yerləri, uşaq və gənclərin yaş qruplarına uyğun əyləncə zonaları, ekstrim velosiped sahəsi və digər guşələr yaradılacaqdır. Parkda salınacaq su hövzəsi kafe və restoranlarda dincələn sakinlər üçün fərqli mənzərə yaradacaqdır. Ərazidə 8,2 kilometr uzunluğunda velosiped və 7,5 kilometr uzunluğunda piyada yollarının salınması planlaşdırılmışdır.



17 OKTYABR 2021

## Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak etmişdirlər. Mərasim zamanı Prezident İlham Əliyev yaşayış məhəlləsinin təməlini qoymuşdur.

17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcəkdir. İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcəkdir. Məhəllədə çoxfunksiyalı binalar olacaqdır. Ümumilikdə məhəllədə 2860 nəfərin yaşaması nəzərdə tutulmuşdur. Həyət tipli plan quruluşlarına malik yaşayış məhəlləsinin inşasında ənənəviliklə müasirlik vəhdət təşkil edəcək və kompleks şəhərin gələcək memarlıq simasının müəyyənləşməsinə təkan verəcəkdir. Məhəllədə, həmçinin iş mərkəzlərinin, ticarət, ictimai iaşə, mədəniyyət və məişət-kommunal obyektlərinin yerləşməsi nəzərdə tutulmuşdur. Ərazi yaşıllıq sahələri ilə əhatə olunacaq, hovuzlar və fəvvarələr quraşdırılacaq, velosiped yolları salınacaqdır.




17 OKTYABR 2021

## Füzulidə Memorial Kompleksin və şəhərin bərpasının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoymuşdurlar.



**20**
**OKTYABR**
**2021**

## Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda səfərdə olduqları zaman rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olmuşdurlar. İlk "Ağıllı kənd" layihəsinin təməli 2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulmuşdur.

Layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Kənddə yaradılacaq "Ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar olacaqdır. Yeraltı kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işlərinə başlanılmışdır. Park meydanında nəzərdə tutulmuş fəvvarənin ərazisində abadlıq işləri yekunlaşmışdır. Fəvvarədə quraşdırılacaq memarlıq abidəsi hazırlıq mərhələsindədir. Burada müasir şəhərsalma standartları tətbiq olunacaq, piyada və velosiped yolları çəkiləcəkdir.

Kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görüləcəkdir. Kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilmiş və lazımi innovativ texnikaların siyahısı hazırlanmışdır. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaqdır. "Ağıllı kənd" layihəsi üçün əkin planı hazırlanmışdır. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilmiş və əkin üçün hazırlığa başlanılmışdır. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılmışdır. "Ağıllı kənd"də kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması nəzərdə tutulmuşdur. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaqdır. Burada "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcəkdir.





**20**
**OKTYABR**
**2021**

## Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olmuşdurlar. Uçuş-enmə zolağının uzunluğu 3 min metr olan hava limanında tikinti işlərinə bu ilin may ayında başlanılmışdır. Zəngilan Hava Limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaqdır. Tikinti işlərinin 2022-ci ildə tamamlanması planlaşdırımışdır.





**20**
**OKTYABR**
**2021**

## Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olmuşdurlar.

Dövlət Sərhəd Xidmətinin Azərbaycan Respublikasının İran və Ermənistanla dövlət sərhədlərinin Zəngilan rayonu ərazisindən keçən hissələrinin mühafizəsini həyata keçirən yeni hərbi hissə kompleksi 15 hektar ərazini əhatə edir. Buraya qərargah binası və əsgər yataqxanası, xidməti otaqlar, yeməkxana və digər tikililər daxildir. Kompleksdə hərbi hissənin təyinatına uyğun xidməti-döyüş fəaliyyətinin təşkilinə, hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətlərinin yüksəldilməsinə, şəxsi heyətin hərbi biliklərinin və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsinə imkan verən zəruri şərait yaradılmışdır.



20
OKTYABR
2021

## “Zəngilan” yarımstansiyasının açılışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də “Azərenerji” ASC-nin 110/35/10 kV-luq “Zəngilan” yarımstansiyasının açılışında iştirak etmişdirlər. Tədbir zamanı Prezident İlham Əliyev “Zəngilan” yarımstansiyasını işə salmışdır.

Elektroenergetika infrastrukturu tamamilə dağıdılmış Zəngilan rayonuna Füzulidəki “Şükürbəyli” yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilmişdir. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülmüşdür. Yarımstansiya binası müasir avadanlıqla təchiz olunmuş, 25 MVA gücündə 2 transformator quraşdırılmışdır. Gələcəkdə şəbəkənin genişləndirilməsi nəzərə alınaraq lazımi infrastruktur yaradılmışdır. Burada qurulan mikro-SCADA dispetçer idarəetmə sistemi yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunmasına və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsinə imkan verir.



20
OKTYABR
2021

## Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməlqoyma mərasimində iştirak etmişdirlər. Mərasim zamanı Prezident İlham Əliyev Rəqəmsal Yarımstansiyanın təməlini qoymuşdur.

35/10 kV-luq 240 kilometrlik və 0.4 kV-luq 1050 kilometrlik elektrik veriliş xətti tamamilə yenidən qurulacaqdır. Ənənəvi təchizat sxemindən fərqli olaraq, yeni struktur şəbəkə iqtisadi baxımdan daha səmərəlidir. Yeni qurulacaq şəbəkədə "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin infrastrukturu üçün bütün imkanlar mövcud olacaqdır.





**25** OKTYABR 2021

## Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda səfərdə olduqları zaman Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində iştirak etmişdirlər. Mərasim zamanı dövlətimizin başçısı Xanlıq-Qubadlı yolunun təməlini qoymuşdur.

Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən bu yolun uzunluğu 56,4 kilometrdir. Qubadlı-Eyvazlı avtomobil yolunun uzunluğu 26 kilometr, eni 7 metr olacaqdır. Qubadlı-Xınzirək avtomobil yolunun uzunluğu isə 23,5 kilometr olacaqdır. Hər iki yol iki hərəkət zolaqlı inşa edilir.

Xudafərin-Laçın avtomobil yolunun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər 14 kilometr uzunluğunda yeni avtomobil yolu inşa ediləcəkdir. Prezident İlham Əliyevin tapşırığına əsasən, Qarabağın inkişaf planı nəzərə alınmaqla Xudafərin-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları dörd hərəkət zolaqlı olacaqdır. Yeni inşa olunan yollar işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, bu rayonların 30-dan çox yaşayış məntəqəsini əhatə edir.





25 OKTYABR 2021

## "Qubadlı" yarımstansiyasının açılışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının açılışında iştirak etmişdirlər. Tədbir zamanı dövlətimizin başçısı yarımstansiyanı işə salmışdır.

Yarımstansiyanın tikintisi ilə paralel olaraq Qubadlının Azərbaycanın ümumi enerji sisteminə qoşulması, rayonun dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün Füzulidəki "Şükürbəyli" yarımstansiyasından "Cəbrayıl" yarımstansiyasına giriş-çıxış olmaqla 76 kilometr məsafədə ikidövrəli 110 kV-luq yüksəkgərginlikli "Qubadlı-1", "Qubadlı-2" elektrik verilişi xətti çəkilmişdir. 150-160 MVt gücötürmə qabiliyyətinə malik yeni xətt layihələndirilərkən rayon üçün səciyyəvi iqlim parametrləri – buzlaşma, küləyin maksimal sürəti, qarın qalınlığı, çirklənmə və başqa amillər, o cümlədən baş verə biləcək qəza hallarının qarşısının alınması, lokallaşdırılması üçün zəruri sistem yaradılmışdır. Yeni çəkilən xətt boyunca ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi, internet üçün fiberoptik kabel çəkilmişdir. Bununla da Qubadlıya təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürücülük qabiliyyətinə malik sürətli internet xətti gətirilmişdir.



25 OKTYABR 2021

## Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışında iştirak etmişdirlər.

Azərbaycan Respublikasının Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır. Kompleksin döyüş texnikası parkında helikopterlər, “HAROP”, “Quzğun” və “Qırğı” zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar və idarə olunan raketlər, 120 və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri mövcuddur. Hərbi hissənin istifadəsində döyüş texnikaları, yüksəkkeçidli nəqliyyat vasitələri, zirehli və zirehsiz avtomobil texnikası, tibb avtomobilləri vardır.

Hərbi hissə kompleksində qərargah binası, zabit-gizir və əsgər yataqxanaları, şəxsi heyət üçün iş otaqları, yeməkxana, yaşayış binaları, anbarlar və digər zəruri infrastruktur yaradılmışdır. Kompleksdə hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətlərinin yüksəldilməsi, şəxsi heyətin hərbi biliklərinin və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi üçün zəruri xidməti və təlim-tədris bazası formalaşdırılmışdır. Tibb məntəqəsində və hərbi hissənin poliqonunda zəruri şərait və baza yaradılmışdır. İdman şəhərciyində futbol və voleybol meydançaları, kazarmalarda müasir standartlara uyğun idman avadanlığı və alətləri ilə təchiz olunmuş məşq zalları təşkil edilmişdir.

Kinoloji təlim şəhərciyində işğaldan azad olunmuş ərazilərdə minaların və partlamamış sursatların axtarışına və aşkarlanmasına cəlb olunan xidməti itlərin hazırlanması, vərdişlərinin təkmilləşdirilməsi, xidməti it təlimatçılarının peşəkar hazırlığının inkişaf etdirilməsi üçün imkanlar mövcuddur. Hərbi hissə kompleksi istilik sistemi, daimi su və elektrik enerjisi ilə təmin edilmişdir. Ərazidə əsaslı tikinti-abadlıq işləri həyata keçirilmiş, geniş yaşıllıq zolaqları salınmışdır.





**26**
**OKTYABR**
**2021**

## Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi və rəmzi açarlarının təqdim edilməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmiş və hava limanının rəmzi açılışını bildirən lenti kəsmişdirlər. Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilmişdir. Açılış mərasimindən sonra dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olmuşdurlar.

Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunmuşdur və istənilən tip hava gəmisini qəbul etmək imkanlarına sahibdir. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılmışdır. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilmişdir. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılmış və sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılmışdır.



**26**
**OKTYABR**
**2021**

## Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Zəngəzur dəhlizinin – Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoymuşdurlar.

Prezidentlər əvvəlcə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olmuşdurlar. Əhmədbəyli-Füzuli-Şuşa yolu altı-dörd cərgədən ibarət olacaqdır. Yolun uzunluğu 81 kilometrdir. Bu yolun başlanğıcdan 50-ci kilometrədək 51 kilometrlik hissəsini Azərbaycan şirkətləri, əllinci kilometrdən 81-ci kilometrə qədər hissəni isə Türkiyənin "Kolin İnşaat" və "Çingiz İnşaat" şirkətləri işləyir. Türkiyə şirkətlərinin işlədiyi hissədə 6 kilometr uzunluqda tunel tikilir və 7 yol ötürücüsü tikiləcəkdir. Tunellərin ümumi uzunluğu 6500 metrdir. Hazırda Şuşa şəhərinin girişində olan 4-cü və 5-ci tunellər artıq tikilmişdir. Biri 431 metr, digəri isə 530 metr uzunluğundadır.

Azərbaycanda ən böyük tuneli "Çingiz İnşaat" inşa edir. Uzunluğu 11 min 600 metr olan bu tunel Toğanalı-Kəlbəcər yolundakı Murovdağ tunelidir. Artıq tunelin 350 metri qazılmışdır. Murovdağ tunelindən əlavə Qorçu aeroportunun 3,5 kilometrlik Laçın-Kəlbəcər tuneli də vardır. Ümumiyyətlə Azərbaycanın Qarabağ ərazisində Türkiyə şirkətləri tərəfindən toplam 62 kilometr uzunluqda tunel tikilir. Hazırda Türkiyə şirkətlərində 6587 işçi çalışır. Onların 1832 nəfəri Türkiyə vətəndaşı, 4500 nəfəri isə Azərbaycan vətəndaşıdır. Qarabağ zonasında işləyən şirkətlərdə ümumilikdə 13 min 280 nəfər çalışır.

Zəngəzur dəhlizinin – Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun uzunluğu Ağbəndə, Ermənistan sərhədinə qədər 123,6 kilometrdir. Bu yolun üzərində 3 tunel yerləşir. Uzunluğu ümumilikdə 3610 metrdir. Hazırda Zəngilan ərazisində dördüncü tunel tikilir. Tuneldə artıq 160 metr iş görülmüşdür. Bu hissədə bütün yolu "Kalyon" şirkəti tikir. Həmin yolun üzərində Zəngilan hava limanı yerləşir. Hava limanına gedən yolun 20 kilometrlik hissəsini "Kalyon" şirkəti ilə birlikdə Azərbaycan şirkəti tikir. Yolun üzərində rayon mərkəzləri ilə hava limanını birləşdirən 7 qovşaq tikiləcəkdir. Bu qovşaq təməli qoyulan yolun sıfırıncı kilometrində olacaqdır.



**26**
**OKTYABR**
**2021**

## “Dost Aqropark”ın təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Zəngilan rayonunda “Dost Aqropark”ın təməlini qoymuş və aqroparkın ərazisində çinar ağacı əkmişdirlər. Sonra prezidentlər Anadolu Agentliyinin Vətən müharibəsini özündə əks etdirən fotosərgisinə baxmışdırlar. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ön sözünü yazdığı və Anadolu Agentliyi tərəfindən hazırlanan “Qarabağ Zəfəri” kitabını Prezident İlham Əliyevə təqdim etmişdir.

Türk və azərbaycanlı sərmayədarlar tərəfindən Zəngilanda həyata keçiriləcək “Dost Aqropark” layihəsi üç mərhələdə icra olunacaqdır. Layihənin birinci mərhələsində inzibati binalar, qapalı və yarıaçıq heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, xidməti heyətin qalması üçün binalar tikiləcəkdir. Kompleksdəki otlaq sahələrində 4 min baş cins qaramalın yetişdirilməsi, əkinçilik məhsulları istehsalı və digər fəaliyyətlər həyata keçiriləcəkdir. Bütün bunlar Azərbaycanın və Türkiyənin qida təhlükəsizliyinə töhfə verəcək, bölgənin əkinçilik və heyvandarlıq məhsullarının beynəlxalq bazarlara çıxarılmasına imkan yaradacaqdır.

Layihə başa çatdıqda 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaqdır. Bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan kənd təsərrüfatı anbarı sistemi inşa ediləcəkdir. Bu kompleks bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcəkdir. “Dost Aqropark” kompleksində ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulacaqdır. Aqropark tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaqdır.





**26 OKTYABR 2021**

## Zəngilanda “Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən “Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanış olmuşdurlar.

Layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə edilməklə tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. “Ağıllı kənd”də müasir şəhərsalma standartları tətbiq olunacaqdır. Piyada və velosiped yolları çəkiləcəkdir.

Burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görüləcəkdir. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilmiş və lazımi innovativ texnikaların siyahısı hazırlanmışdır. “Ağıllı kənd təsərrüfatı”nda müasir suvarma sistemlərindən istifadə olunacaqdır. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılmışdır. Burada “Ağıllı idarəetmə sistemi” data və təhlil mərkəzindən həyata keçiriləcəkdir.





26
OKTYABR
2021

## Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında oktyabrın 26-sı Zəngilanın Ağalı kəndində təkbətək görüş olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələr və regional proseslər, iqtisadi və ticari sahələrdəki əməkdaşlığın genişləndirilməsi ilə enerji, nəqliyyat və Qarabağın inkişafı ilə bağlı layihələrin mövcud durumu, gələcəklə bağlı planlar və ən önəmlisi, Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çatdırılmış əlaqələrin daha da necə inkişaf etdirə biləcəyi ətraflı müzakirə edilmişdir.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış etmişdirlər. Bəyanatda işğaldan azad edilmiş regionlarda sürətlə gedən bərpa-quruculuq işlərini yüksək qiymətləndirən dövlət başçıları Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştiraklarının bir daha iki qardaş ölkə arasında birliyin göstəricisi olduğunu ifadə etmiş, Türkiyə və Azərbaycanın iki qardaş ölkə kimi bundan sonra da hər zaman bir-birinin yanında olacaqlarını bildirmişlər.






07
NOYABR
2021

## Zəfər yolunun açılış mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak etmişdirlər. Prezident İlham Əliyev Zəfər yolu lövhəsinin üzərindən ağ örtüyü götürmüşdür.

Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunmuşdur. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarla yaşayış məntəqəsini əhatə edir.





**07**
**NOYABR**
**2021**

## Daşaltı məscidinin təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Daşaltı məscidinin təməlini qoymuşdurlar. Azad edilmiş ərazilərimizdə işğal dövründə düşmən tərəfindən dağıdılmış dini-mənəvi abidələrimiz bərpa olunur və yeniləri tikilir. Zəfər Günü ərəfəsində belə bir addımı atmaqla Prezident İlham Əliyev dünyaya növbəti mesajı verir: “Biz nəinki torpaqlarımızı abadlaşdırır, keçmiş məcburi köçkünlərimizi geri qaytarmaq üçün müasir infrastruktur yaradır, həm də ermənilərin bu torpaqlarda dini-mədəni abidələrə qarşı həyata keçirdiyi vandallığın izlərini təmizləyir, müqəddəs dəyərlərimizə sahib çıxırıq”.






**07**
**NOYABR**
**2021**

## Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməl qoyulması

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlini qoymuşdurlar. Şuşa Radio-Televiziya Yayım Stansiyası 1966-cı ildə inşa edilmişdir. Sovet dönəmində radio-televiziya proqramları bu stansiya vasitəsilə Qarabağa və Naxçıvan Muxtar Respublikasına ötürülürdü. Şuşa işğal olunana qədər teleradio proqramlarının bu bölgələrə ötürülməsinə ermənilər hər vasitə ilə mane olurdular. Stansiya dəfələrlə ermənilər tərəfindən ağır artilleriya atəşinə məruz qaldığından buradakı avadanlıqlar zədələnmiş, texniki binada ciddi dağıntılar baş vermişdir. 1992-ci ildə Şuşa işğal olunduğu zaman stansiyanın fəaliyyəti nəzarətdən çıxmışdır.

Şuşa işğaldan azad edildikdən sonra Şuşa Radio-Televiziya Yayım Stansiyasında ötən il dekabrın 31-dən radio-televiziya yayımlarının təşkili müvəqqəti bərpa edilmişdir. Stansiyadan yayımlanan 11 televiziya proqramının Şuşa, Xankəndi şəhərlərində və Xocalı, Ağdam, Bərdə rayonlarında, eləcə də ətraf yaşayış məntəqələrində yayımı təmin olunmuşdur. Layihəyə əsasən tikiləcək 130 metrlik metal qüllə dayanıqlı və keyfiyyətli radio-televiziya yayımının təmin edilməsinə imkan verəcəkdir. Şuşa və ətraf ərazilər keyfiyyətli radio-televiziya yayımları ilə təmin olunacaqdır.





07
NOYABR
2021

## Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak etmişdirlər. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada müayinə və müalicə işinin aparılması üçün hər cür şərait yaradılacaqdır. Təməli qoyulan Şuşa Rayon Mərkəzi Xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində Prezident İlham Əliyevin birbaşa göstərişi və rəhbərliyi ilə icra olunan infrastruktur layihələrindən biridir.





07
NOYABR
2021

## Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Aşağı Gövhər Ağa məscidində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri ilə tanış olmuşdurlar.

Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa və Saatlı məscidləri ilkin layihəyə uyğun olaraq bərpa olunur. Hər üç məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Ötən bir il ərzində Azərbaycan, Avstriya, İtaliya, Latviya və Türkiyədən olan ekspertlər tərəfindən qeyd olunan məscidlərdə qiymətləndirmə işləri aparılmış, bərpa layihəsi işlənilmişdir. Hər üç məscidin bərpa işləri "Paşa Holdinq"in maliyyə dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Yuxarı Gövhər Ağa məscidində bərpa işlərinin birinci mərhələsi artıq başa çatmışdır. Məsciddə ikinci mərhələ üzrə bərpa işləri aparılır. Bu mərhələdə məsciddə ilkin layihə qorunmaqla möhkəmləndirmə işləri həyata keçiriləcək, məscidin ərazisində olan və ermənilər tərəfindən dağıdılmış mədrəsə bərpa ediləcəkdir. Ən geniş bərpa işləri dağıntıların miqyasına uyğun olaraq, Aşağı Gövhər Ağa məscidində aparılacaqdır. Məscidlərin minarələri bərpa olunacaq, dam və döşəmə örtükləri dəyişdiriləcəkdir.





**07**
**NOYABR**
**2021**

## Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış olmuşdurlar. Mühüm mədəni-tarixi memarlıq abidəsi olan Mehmandarovların malikanə kompleksində bərpa işləri Heydər Əliyev Fondu tərəfindən aparılır. Kompleksə məscid, kiçik və böyük yaşayış evləri daxildir. İşğal dövründə ciddi ziyan dəyən, ermənilər tərəfindən dağıntılara məruz qalan malikanə kompleksində mütəxəssislər qiymətləndirmə işləri aparmışdırlar. Qiymətləndirmə işlərinə uyğun olaraq ilkin layihə əsasında bərpa işlərinə başlanılmışdır.





07 NOYABR 2021

## VIII Qlobal Bakı Forumunun Şuşaya səfər edən iştirakçıları ilə görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də VIII Qlobal Bakı Forumunun Şuşaya səfər edən iştirakçıları ilə görüş keçirmişdirlər.

Zəfər Günü münasibətilə Prezident İlham Əliyevi təbrik edən qonaqlar qısa vaxtda burada belə genişmiqyaslı işlərin görülməsinin böyük təəssürat yaratdığını vurğulamışdırlar. Bu işlərin Prezident İlham Əliyevin qətiyyətli və səriştəli rəhbərliyi, cəsarətli mövqeyi sayəsində reallaşdığını bildirmişdirlər.

Prezident İlham Əliyev işğaldan azad edilən ərazilərdə, həmçinin Şuşada bir ildən az vaxt ərzində sosial və infrastruktur obyektlərinin tikildiyini, yenidən qurulduğunu və bu işlərin hazırda da davam etdirildiyini, əsas hədəfin azad olunan ərazilərdə keçmiş məcburi köçkünlər üçün yüksək yaşayış şəraitinin yaradılması olduğunu bildirmişdir.





08
NOYABR
2021

## Cıdır düzündə ağacəkmə aksiyası

Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşanın düşmən tapdağından azad edilməsi tarixi Qələbəmizin simvoludur. İşğaldan azad olunmuş ərazilərdə son bir ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri yenidən bu yerlərə həyat verir, ermənilərin ekoloji sistemə vurduqları ziyan aradan qaldırılır.

Xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası keçirilmişdir. Aksiya çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 8-də Cıdır düzündə ağac əkmişdirlər.

İşğaldan azad olunan ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Topxana meşəsini də əhatə edir. Heydər Əliyev Fondunun layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində də ağacəkmə aksiyası keçirilmiş, 3 hektar əraziyə dağdağan, göyrüc, saqqızağacı, qarağac əkilmiş, əraziyə 100 kiloqram palıd toxumu səpilmişdir.





08
NOYABR
2021

## Türkiyənin milli müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Yaşar Güler, Türkiyə Respublikasının Quru Qoşunları komandanı Musa Avsever, Hərbi Hava Qüvvələri komandanı Hasan Küçükakyüz və Hərbi Dəniz Qüvvələri komandanı Adnan Özbal daxildir.

Nazir Hulusi Akar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını və bayram təbriklərini Prezident İlham Əliyevə və Azərbaycan xalqına çatdırdıqdan sonra Zəfər Günü münasibətilə öz adından da dövlətimizin başçısını təbrik etmişdir.

Təbriklərə görə təşəkkür edən Prezident İlham Əliyev Hulusi Akarın bu bayram günündə Türkiyə Silahlı Qüvvələrinin rəhbər şəxsləri ilə bərabər Şuşaya gəlişinin xüsusi önəm daşıdığını vurğulayaraq minnətdarlığını bildirmiş, Vətən müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi dəstəyi bir daha yüksək qiymətləndirərək müharibədən sonrakı dövrdə əlaqələrimizin daha yüksək səviyyəyə qaldırıldığını vurğulamışdır.






**12**
**NOYABR**
**2021**

## Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Türk Dünyasının Ali Ordeni təqdim edilmişdir.

Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının bununla bağlı qəbul etdiyi Qərarda deyilir: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir".

Qərarı Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev imzalamışdırlar.





26
NOYABR
2021

## İkitərəfli Soçi görüşü

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə noyabrın 26-da Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlmişdir. Səfər zamanı Prezident İlham Əliyev ilə Prezident Vladimir Putin arasında ikitərəfli görüş olmuşdur.

Görüş zamanı iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi ərəfəsində strateji tərəfdaşlığın çox uğurla inkişaf etdiyini vurğulayan dövlət başçılarının diqqət mərkəzində Qarabağdakı mövcud vəziyyət, Rusiya sülhməramlılarının sülhün qorunub saxlanılmasındakı rolu və fəaliyyəti, ola biləcək insidentlərin və risklərin qarşısının alınması və diqqətlə yanaşılması, onları necə minimallaşdırmağın mümkünlüyü, Ermənistan-Azərbaycan arasında münasibətlərin hərtərəfli nizamlanması və eləcə də regionda insanların rahat yaşamasına, ölkələrin inkişaf etməsinə imkan verəcək şərait yaradılması üçün ölkələrin üzərinə düşən öhdəliklər olmuşdur.



26
NOYABR
2021

## Üçtərəfli Soçi görüşü

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında noyabrın 26-da Soçidə üçtərəfli görüş keçirilmişdir.

Görüşün əsas müzakirəsini Azərbaycan və Ermənistan arasında sərhədin demarkasiyası və delimitasiyası mexanizmlərini yaratmaq, humanitar xarakterli məsələlərlə bağlı irəliləyiş əldə etmək və nəhayət iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün həm dəmir yolunu, həm də avtomobil yollarını özündə ehtiva edən nəqliyyat dəhlizinin açılması təşkil etmişdir.

Tərəflər 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatdan sonra bir il müddətində iki ölkə arasında baş vermiş qarşıdurmalara son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə sülh, sabitlik və təhlükəsizlik şəraitində qonşular kimi yaşamağı təşviq etmək üçün sülh müqaviləsi üzərində işə başlamaqda da maraqlı olduqlarını dilə gətirmişdirlər.

Görüşdən sonra mətbuata bəyanatla çıxış edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan əsasən konstruktiv şəkildə işləyərək gündəlikdəki bütün məsələləri müzakirə edərək yaranmış vəziyyəti dərindən təhlil etdiklərini, mühüm olan bir sıra məsələlər barədə razılığa gəldiklərini və Cənubi Qafqazda vəziyyətin daha təhlükəsiz və proqnozlaşdırıla bilən olmasına şərait yaradacaq məsələlərdə maraqlı olduqlarını bildirmişdirlər.





**13**
**DEKABR**
**2021**

## “Şərq Tərəfdaşlığı” Proqramının VI Sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının “Şərq Tərəfdaşlığı” Proqramının VI Sammitində iştirak etmək üçün dekabrın 13-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfər etmişdir.

Səfər çərçivəsində Prezident İlham Əliyev dekabrın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşmüşdür.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunmuş, Şarl Mişelin Azərbaycan Respublikasına səfəri xatırlanmış, Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində dəstəyi vurğulanmışdır.

Eyni zamanda, gün ərzində Avropa İttifaqı, Azərbaycan və Ermənistan rəhbərləri arasında keçiriləcək üçtərəfli görüşə dair fikir mübadiləsi aparılmış, söhbət zamanı, həmçinin Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı məsələlər müzakirə olunmuş, kommunikasiyaların açılması, humanitar xarakterli məsələlər və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılmışdır.





14
DEKABR
2021

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyan arasında görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında dekabrın 14-də Brüsseldə birgə görüş keçirilmişdir.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi məsələsi gündəliyə gətirilmiş, Avropa İttifaqının bu istiqamətdə Azərbaycana texniki yardım göstərməyə hazır olduğu bildirilmişdir.

Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəlmişdirlər. Eyni zamanda, kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi geniş müzakirə olunmuşdur. Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq etmişdir. Bildirilmişdir ki, Ermənistan tərəfi dəmir yolunun çəkilişinə tezliklə start verəcəkdir. Burada gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə razılığa gəlinmişdir.

Görüşün nəticəsi olaraq Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən mətbuata açıqlama verilmişdir.




15
DEKABR
2021

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində çıxışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Belçika Krallığının paytaxtı Brüsseldə keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində çıxış etmişdir.

Azərbaycan-Avropa İttifaqı arasında strateji əlaqələrin yüksələn xətlə inkişaf etdiyinə diqqət çəkən Prezident İlham Əliyev çıxışı zamanı Qarabağ mövzusuna toxunaraq Ermənistan ilə Azərbaycan arasında konstruktiv mühitin hökm sürdüyünü, belə bir mühitin yaradılmasında Avropa İttifaqının rolunu xüsusi vurğulamışdır. Dövlətimizin başçısı bu imkanın əldən verilməməsi və yaranmış fürsətdən istifadə edərək regionda davamlı sülhün təmin olunması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini bildirmişdir.

Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün münbit zəminin yarandığını bildirən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın özü tərəfindən hərbi-siyasi yollarla həll edildiyini və Dağlıq Qarabağ münaqişəsinin artıq olmadığını, bundan sonra hər iki ölkənin gələcəyə baxmalı olduğunun vacibliyini vurğulamışdır.

Dövlətimizin başçısı İlham Əliyev, həmçinin ATƏT-in Minsk qrupunun roluna toxunaraq Ermənistanla Azərbaycan arasında sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası, insanlar arasında təmasların yaradılması, etimad quruculuğu tədbirləri və digər məsələlərdə Minsk qrupu tərəfindən kömək göstərilə biləcəyini bildirmişdir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə olan minalar məsələsinə toxunaraq Azərbaycanın mülki vətəndaşlarının minalardan əziyyət çəkdiyini və bu günə qədər 200-ə yaxın insanın mina partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını bildirmişdir. Bu xüsusda Avropa İttifaqı və üzv dövlətlər tərəfindən Azərbaycana mina probleminin aradan qaldırılması üçün texniki və maliyyə yardımının göstərilməsinin vacibliyini diqqətə çatdırmışdır.





24
DEKABR
2021

## Hadrut qəsəbəsində hərbi hissənin açılışı

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev dekabrın 24-də Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər etmiş və burada hərbi hissənin açılışında iştirak etmişdirlər.